**İnsan daim ana təbiətin qoynuna can atır. Xüsusilə də indiki qızmar yay dövründə hər kəs şəhərlərin səs-küyündən uzaqlaşıb dağların, meşələrin qoynunda, yaxud da kənd evlərində, kiçik motellərdə dincəlmək istəyir.**



# Tovuzun əsrarəngiz təbiəti turistləri heyran edir

Onlar kənd evlərində yerli sakinlərin qonaqpərvərliyindən, milli mətbəximizin ləziz təamlarından, şəlalənin şırıltısından aldıqları ləzzəti başqa yerdə ala bilmirlər. Məhz buna görə də turizmin bu sahəsinə daha çox üstünlük verilir. Necə deyərlər, həm ziyarət, həm ticarət. Həm gəlib görməli yerlərlə, zəngin tarix, mədəniyyət abidələrimizlə tanış olur, həm də gözəl, füsunkar təbiətimizin gözəlliyindən zövq alırlar.

Əlverişli iqlim şəraiti, əsrarəngiz təbiət Tovuz rayonunda da turizmin inkişafı üçün geniş imkanlar açır. Bütün imkanlardan maksimum istifadə edən Tovuz Rayon İcra Hakimiyyəti bu vacib sahəyə daha çox diqqət ayırmaqla, yeni-yeni istirahət məkanları yaradır, istər yerli, istərsə də xarici turistlərin diqqətini cəlb etmək üçün çoxsaylı tədbirlər həyata keçirir. Son illər rayonda turizmin inkişaf etdirilməsi ilə əlaqədar 5 hektar ərazidə Olimpiya İdman Kompleksi, onun yaxınlığında 5,2 hektar sahədə 5 ulduzlu "Ayan Palase" hoteli, Karvansara tipli "Qala", "Şəlalə", "Üç qala" kompleksi inşa edilmiş, 10,4 hektar sahədə Heydər Əliyevin adını daşıyan mədəniyyət və istirahət parkı yaradılmışdır.

Rayon tarixi abidələr baxımından da turistlər üçün maraqlıdır. Aşağı Quşçu kəndi ərazisində, bizim eradan əvvəl VI minilliyə aid Göytəpə yaşayış məskəni və onlarla digər qədim tarixi abidələr rayonun turizm imkanlarını xeyli genişləndirmişdir. Rayona gələn turistlərin məlumatlandırılması məqsədilə yaşayış məntəqələrində müxtəlif məlumatlar, ictimai-iaşə obyektləri, poçt, tibb məntəqələri haqqında məlumatlandırıcı lövhələr yerləşdirilmişdir. Rayon ərazisindəki turist məkanlarına gedən yollara asfalt salınmış, yol boyu marşrut nişanları quraşdırılmışdır.



Ümumiyyətlə, hər il rayonda turizm mövsümünə ciddi hazırlıq işləri aparılır. Cari ildə də bu sahədə xeyli iş görülmüşdür. Rayonda müəyyənləşdirilmiş beş marşrut üzrə turist qəbul etmək üçün lazımi addımlar atılmışdır. Bunlar Tovuz-Ağdam, Tovuz-Böyük Qışlaq-Qaralar, Tovuz-Qovlar-Ağbaşlar, Tovuz-Əlibəyli, Tovuz-Əlimərdanlı-Hunanlar marşrutlarıdır. Hər bir turist marşrutunun üzərində iaşə müəssisələri və kempinqlər var. Həmin iaşə müəssisələrinin ərazisində mədəniyyət işçiləri turistlərə mütəmadi xidmət göstərirlər. Turistləri qəbul etmək üçün 5 ulduzlu 65 yerlik "Ayan Palace" mehmanxanası yüksək səviyyədə fəaliyyət göstərir. Bundan başqa, "Qozlu bulaq" ailəvi-istirahət mərkəzi də turistlərin xidmətindədir.

Tovuz rayonu coğrafi mövqeyi və relyefinin müxtəlifliyi, eləcə də iqlim şəraitinin rəngarəng olması ilə fərqlənir. Ərazidən Axıncı çay, Tovuz çay, Əsrik çay, Zəyəm çay adlı 4 dağ çayının axması, dağlıq ərazilərdə zəngin meşələrin, təbii bulaqların, əsrarəngiz gözəlliyi olan mənzərələrin, tarixi abidələrin mövcudluğu turistlərin qəbulu üçün əlverişli imkanlar yaradır. Həmin çayların qovuşduğu rayon mərkəzindən 12 kilometr məsafədə yerləşən Kür çayının sahilində antik dövrə aid "Torpaqqala" qədim yaşayış məntəqəsi də turizm üçün maraqlı abidə kimi dəyərləndirilir. Ümumiyyətlə, Tovuzda Nazirlər Kabineti tərəfindən qeydiyyatdan keçirilmiş 61 abidə var.

Rayonun Xınna dərəsi adlanan ərazisində XVII əsrə aid məscid və XII əsrə aid türbələr, Qəribli və Abdal kəndlərində orijinal arxitekturaya malik qədim alban məbədləri turistlərin diqqətini cəlb edən tarixi abidələrdir. Aşağı Quşçu kəndi ərazisində eramızdan əvvəl 6-cı minilliyə aid edilən "Göytəpə" yaşayış məskəni də turistlərdə ölkəmizin tarixi barədə təsəvvür yaratmaq üçün maraqlı məkanlardan hesab olunur.

Tovuzda turizmdən söhbət düşəndə Xınna dərəsi ilə Əsrik dərəsinin adlarını xüsusilə qeyd edirlər. Vaxtilə bu ərazilər yerli əhalinin bir günlük dincəlmək məkanı olsa da, indi tamam özgə büsatdadır. Təkcə Əsrik dərəsində təxminən iki yüzə yaxın bulaq var. Yayın qızmar istisində bu ərazidə mövcud olan sərin hava insanların istirahəti üçün çox yaxşı imkan yaradır. Yay aylarında demək olar ki, ərazidə minlərlə turist olur. Dərə boyu yaradılan istirahət məkanları imkan verir ki, insanlar yay mövsümündə mənalı istirahət etsinlər.

Rayonda turizmin inkişafında Xınna dərəsindəki "Suyun səsi" istirahət mərkəzinin də xüsusi rolu var. 5 ulduzlu hotel səviyyəsində olan mərkəzdə yaradılan şərait həm yerli, həm də xarici turistlərin ən çox maraq göstərdikləri məkanlardandır. Rayon mərkəzindən Xınna dərəsinə geniş və rahat asfalt yol çəkilmişdir. Burada böyük bir ərazidə salınan ən müasir istirahət mərkəzi olan "Suyun səsi" cazibədar məkan kimi göz oxşayır. Hər bir xidmət böyük zövqlə, turistlərin ürəyincə yaradılıb. 4 mərtəbəli istirahət mərkəzində eyni vaxtda 200 nəfər turist qala bilər. Burada ailəvi dincəlmək istəyənlər üçün kotteclər də yaradılıb. Uzunluğu 100 metr, eni 50 metr olan iki nəhəng hovuz inşa edilib. Hovuzlar Xınna dərəsi boyunca axan Zəyəm çayının üstündə salındığından hər gün onların suyu yenilənir. Turistlərin mənalı istirahəti üçün hovuzlara 4 ədəd qayıq da buraxılmışdır.

İndi yayın ən qızmar çağıdır. Belə bir dövrdə insanlar çalışırlar ki, şəhərin səs-küylü həyatından ayrılaraq istirahətlərini təbiətin qoynunda keçirsinlər. Özü də elə məkanlara üz tutsunlar ki, həm də təbiətin mənzərəsindən zövq alsınlar. Tovuzun turizm potensialı bu arzuda olan insanlar üçün geniş imkanlar açır.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan. - 2023.- 13 avqust.- S.7.